# Brüssel gündəliyi Azərbaycanın dünyadakı nüfuzunun göstəricisidir

***Qırx dörd günlük Vətən müharibəsindən sonra Azərbaycanın dünyada onsuz da günbəgün artan nüfuzu daha da möhkəmləndi. Uğurlu xarici və daxili siyasət sayəsində qüdrətli ölkələr arasında söz sahiblərindən birinə çevrilən dövlətimizin Ermənistan qarşısında qoyduğu tələblər qeyd-şərtsiz həyata keçirilməlidir. Biz bunu dövlət başçımızın Brüssel səfəri zamanı, üçtərəfli görüşlər çərçivəsində daha dolğun formada hiss etdik. Prezidentimizin ölkəmiz adına qazandığı növbəti diplomatik uğuru ictimaiyyət tərəfindən rəğbət və inamla qarşılandı. Azərbaycan xalqı tutduğu mövqe və mənsubiyyətindən asılı olmayaraq, Prezidentimizin çıxışını, yaxın zamana qədər təcavüzkar, indi isə məğlubiyyəti və taleyi ilə barışmağa məcbur olan qonşularımızın qarşısında qoyduğu şərtləri dəstəklədi.***



Siyasi qarşıdurmalar da, bu qarşıdurmaların bəzilərinin müharibə ilə nəticələnməsi də, bundan sonra dövlətlərarası əlaqələrdə yaranan münasibətlər də bu və ya digər dövlətin xarici siyasətinə təsir göstərir. Ermənistanın Azərbaycandan torpaq iddiası, bu iddianın davamı kimi başlanan elan edilməyən müharibə, Azərbaycan dövlətinin münaqişəni sülh yolu ilə həll etmək istəyi, Ermənistanın danışıqlardan yayınması, regionda status-kvonu saxlamaq niyyəti dünyaya yaxşı məlumdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmri ilə əks-hücum kimi başlayıb Vətən müharibəsi kimi davam edən döyüşlər də dünyanın aparıcı dövlətlərinə yaxşı məlumdur. Azərbaycan Ordusu bu döyüşlərdə böyük zəfər qazandı. Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici dövlətlərə səfərləri də həqiqi zəfər ovqatlı səfərlər olub. Həmkarları qalib dövlətin müzəffər lideri ilə müxtəlif məsələləri səmimiyyətlə müzakirə ediblər.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş nəticələr Azərbaycan diplomatiyasının, dövlət başçımızın dünyada böyük nüfuza malik olduğunun təsdiqidir.

Azərbaycan Respublikası Prezidentinin məntiqli, arqumentli çıxışı, həmişə olduğu kimi, indi də öz nəticəsini göstərdi. Danışıqlar Azərbaycan diplomatiyasının növbəti qələbəsi kimi tarixləşdi. Bu qəbildən ilk üçtərəfli görüşdə – 2021-ci il dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulmuşdu. Belə görüşlər həmişə davamlı sülhə zəmanət kimi qəbul edilir. Proseslərin davamı və inkişafı münasibətlərin bəşəri xarakteri ilə səciyyəvidir: tərəflər arasında intensiv təmaslar, telefon danışıqları olub.

Bu görüş Azərbaycanın xarici siyasətində yaddaqalan görüş kimi tarixləşdi. Belə ki, görüşdə ədalətli sülhün və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində mühüm qərar qəbul edildi. Aprelin 6-da keçirilən görüşdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alındı. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirliklərinə müvafiq təlimatlar verildi. Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılması sülh razılaşmasının əsas komponentidir. Bu sənədin tarixi dəyəri onun Azərbaycanın ərazi bütövlüyünü əhatələməsidir...

Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsindən sonra ən həssas məsələ sərhəd məsələsidir. Sərhəd məsələləri üzrə birgə komissiya yaradılması, sərhədlərin delimitasiya prosesinə başlanılması ilə bağlı razılıq əldə olundu. Bu razılıq, özlüyündə işğalçı dövlətin Azərbaycanın ərazi bütövlüyünü tanıması istiqamətində siyasi razılıqdır.

İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, itkin düşmüş şəxslərin tapılması və quruculuq işlərində Avropa İttifaqı tərəfindən Azərbaycana dəstək göstərilməsi də görüşün ölkəmiz üçün olduqca uğurlu keçməsinin bariz nümunələrindən hesab edilməlidir.

Görüşdə infrastruktur layihələr müstəvisində əməkdaşlıq, heç şübhəsiz, nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılmasına, dəmir yolu və avtomobil yolunun çəkilməsinə böyük inam yaradıb. Bu məqsədlə Məşvərət Şurası mexanizminin yaradılmasının qərara alınması təqdirəlayiq hal kimi yüksək qiymətləndirilməlidir.

Brüsseldə aparılan danışıqlarda "Dağlıq Qarabağ" ifadəsi, səmərəsiz fəaliyyəti başa çatmış ATƏT-in Minsk qrupu həmsədrlik institutuna istinad yoxdur. Bu fakt onu göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir. Münaqişə həll olunduğuna görə, ATƏT-in Minsk qrupu lazımsız təsisata çevrilib. Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

Bu görüş, həm də, səmərəli və konstruktiv əməkdaşlığın təzahürüdür. Son illər ərzində Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunun daha da artması, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasında intensiv dialoq və təmaslar, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli istiqamətində əməli addımların atılması üçün mühüm şərtdir.

Avropa İttifaqı Prezident İlham Əliyevin regional liderliyini birmənalı şəkildə qəbul edir. Avropa İttifaqının Azərbaycanla yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görünür. Son iki ayda Azərbaycan Prezidenti ilə dünya liderləri, dövlət və hökumət başçıları arasında dialoqlar, telefon danışıqları cənab İlham Əliyevin dünyəvi nüfuzunun göstəricisidir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 17 aprel.- S.3.